# Dünyaya sığmayan Nəsimi

*Məndə sığar iki cahan, mən bu cahanə sığmazam,*
*Gövhəri la məkan mənəm, kövnü məkanə sığmazam.*

*Ərşlə fər şu kafü nun məndə bulundu cümlə çün,*
*Kəs sözünü və əbsəm ol, şərhü bəyanə sığmazam.*

*Kövnü məkandır ayətim, zati dürür bidayətim,*
*Sən bu nişanla bil məni, bil ki, nişanə sığmazam.*

* * *

*...Şəhd ilə həm şəkər mənəm, şəms mənəm, qəmər mənəm,*
*Ruhi-rəvan bağışlaram, ruhi-rəvanə sığmazam.*

*Tir mənəm, kəman mənəm, pir mənəm, cavan mənəm,*
*Dövləti-cavidan mənəm, ayinədanə sığmazam.*

*Gərçi bu gün Nəsimiyəm, haşimiyəm, qureyşiyəm,*
*Məndən uludur ayətim, ayətə, şanə sığmazam.*

Seyid Əli Seyid Məhəmməd oğlu İmadəddin Nəsimi (1369, Şamaxı-1417, Hələb) - Azərbaycan şairi, mütəfəkkir. "İmadəddin Nəsimi" adı ilə məşhurdur. İlk təhsilini Şamaxıda almış, dövrün elmlərini, dinlərin tarixini, məntiq, riyaziyyat və astronomiyanı öyrənmişdir. 10-cu əsrdə Bağdadda dara çəkilmiş Həllac Mənsur Huseyninin sufi görüşlərini təbliğ edən Nəsimi ilk şeirlərini "Hüseyni" təxəllüsü ilə yazmışdır. 14-cü əsrin sonlarında Azərbaycanda geniş yayılmış hürufi təşkilatları ilə əlaqə saxlamışdır. Hürufiliyin banisi Fəzlullah Nəiminin görüşlərini mənimsəyərək, bu təriqətin fikirlərini təbliğ edən şeirlər yazmağa başlamış və bu vaxtdan etibarən Nəiminin təxəllüsü ilə həmahəng səslənən "Nəsimi" təxəllüsünü qəbul etmişdir. 1394-cü ildə Nəimi edam edildikdən sonra onun "Vəsiyyətnamə"sinə əsasən Nəsimi Təbrizə, oradan da Anadoluya (Türkiyə) getmiş, hürufilik fikirlərini yaydığı üçün dəfələrlə zindana salınmışdır. Ömrünün son illərini Hələbdə (Suriya) yaşamış, orada həbs olunmuş, "kafir, dinsiz" elan edilərək, Misir sultanının əmri və ruhanilərin fitvası ilə diri-diri dərisi soyulmuşdur. Nəsiminin yaradıcılığı dilçilik, xüsusilə Azərbaycan türkcəsinin tarixi inkişafını öyrənmək baxımından da müstəsna əhəmiyyətə malikdir. Nəsimi Azərbaycan şeirinin şəkli xüsusiyyətlərinin təkmilləşməsində çox mühüm rol oynamış, əruz vezninin bəhrlərini Azərbaycan dilinin xüsusiyyətlərinə uyğunlaşdırmağa çalışmışdır. O, 3 dildə gözəl müləmmələr yazmışdır. Nəsimi Azərbaycan ədəbiyyatında ana dilində ilk dəfə müstəzad, mürəbbe və tərcibəndlər yazmışdır. Onun rübailəri, tuyuğları bədii quruluş və məzmunca orijinal və qiymətlidir. Rübailərində hürufiliyin müddəaları, şairin fəlsəfi görüşləri, Həyat və Kainat haqqında düşüncələri yığcam və məntiqi bir dildə ifadə olunmuşdur. Nəsiminin əsərləri hələ sağlığında Azərbaycan, Yaxın Şərq, İraq, Kiçik Asiya və Suriyada, eləcə də Orta Asiyada və uyğurlar içərisində geniş şöhrət tapmışdı. Nəsiminin ana dilində yazdığı əsərlər Azərbaycan şeirinin inkişafına, o cümlədən, Şah İsmayıl Xətai, Füzuli, Vaqif kimi böyük sənətkarların yaradıcılığına qüvvətli təsir göstərmişdir.

...Filosof-şairin poeziyası çox tez bir zamanda Orta Asiya, Türkiyə və İran xalqları arasında populyarlıq qazanır. Mənsur Həllacla birlikdə onun adı öz əqidəsi uğrunda qeyri-adi sədaqət və cəsurluq rəmzinə çevrilir. Onun əsərləri bir çox dillərə çevrilir və həmin dillərdə yazıb-yaradan şairlər onu təqlid edirlər. Nəsiminin şeirlərini xalq arasında avazla oxumaq və onun hürufi ideyalarını təbliğ etmək üstündə bir çoxları əzablara qatlaşır, hətta canlarından da keçirlər. Yaradıcılığının ilk dövrlərində Nəsimi də ustadı Nəimi kimi sufizm mövqeyində dayanır və tanınmış sufi şeyxi Şiblinin təlimini davam etdirir. Bu mərhələdə şair öz əsərlərini "Hüseyni", "Seyid Hüseyni", "Seyid" təxəllüsləri ilə yazır. Lakin X əsrin sufi İran filosof-şairi Mənsur Həllacın təlimi Nəsiminin ruhuna daha yaxın idi. İlk dəfə məhz o demişdi ki, "Mən Allaham!" Bu cür küfr sayılan fikirlərinə görə Mənsur Həllac daim təqiblərə məruz qalmış və nəhayət, öz ömrünü dar ağacında başa vurmuşdu. Əqidəsi uğrunda bu cür fədakarlıq göstərməyə hazır olan Nəsimi də Mənsura heyran kəsilmiş və öz əsərlərində onu tərənnüm etmişdi. Maraqlıdır ki, şair hürufi təlimini qəbul etdikdən sonra da Həllaca vurğunluğundan qalmamışdı. Bu sözləri müəyyən mənada Nəsiminin uzun müddət sadiq qaldığı sufi fəlsəfəsi haqda da söyləmək olar. Bununla əlaqədar olaraq, Zümrüd Quluzadə yazır: "Nəsimi yaradıcılığının mərkəzində lirik qəhrəmanın aşiq olduğu, onu yüksəldən, kamilləşdirən və öz nuruna qərq edən gözəl-Allah dayanır. İnsan üçün ən yüksək, ülvi duyğu həmin sevgilinin vüsalına yetişmək, ona qovuşmaq, onda əriyib yox olmaqdır. Şair yazır ki, eşqi günah sayanların sözlərinə baxmayaraq, o, bu yoldan çəkinməyəcək. Çünki yalnız bu yol insanı tanrıya, həqiqətə çatdıra bilər." Daha sonra oxuyuruq: "Lakin tədricən Nəsiminin dünyagörüşündə sufilik hürufiliklə əvəz olunur. Bu, hər şeydən öncə şairin panteist görüşlərindəki dəyişiklikdə əks olunur. Bu görüşlərin əsasında artıq eşq və sərxoşluq deyil, hərf, ağıl dayanmağa başlayır.

...Hürufilər Teymurləng tərəfindən ciddi təzyiqlərə məruz qaldığı bir vaxtda Nəsimi vətəndən didərgin düşüb, İraq, Türkiyə, Suriyada yaşamağa məcbur olub. Hürufilik təlimi əsasında irəli sürdüyü panteist ideyaları üstündə Hələb şəhərində edam olunub. Nəsiminin edamı haqqında İbn əl-İmad Hənbəli yazır: "O, hürufilərin şeyxidir, Hələbdə sakin idi, tərəfdarları çoxaldı, bidəti artdı, iş o yerə çatdı ki, sultan onun öldürülməsini əmr etdi, boynu vuruldu, dərisi soyuldu, çarmıxa çəkildi".

Ötən gün Bakı Qida Sənayesi Kollecinin kitabxanasında Azərbaycan xalqının görkəmli şairi və filosofu, hurifi təriqətinin nəğməkarı, insan zəkasının, istedadının və hisslərinin gözəlliyinin tərənnümçüsü İmadəddin Nəsiminin anadan olmasının 650 illiyinə həsr olunmuş ədəbi-bədii gecə keçirilmişdir.

Ədəbi-bədii gecəni kollecin kitabxanaçısı Nazimə Məmmədova açaraq qonaqları salamladı və gecənin iştirakçılarına xoş gəldiniz deyərək sözü Bakı Qida Sənayesi Kollecinin direktoru professor Vilayət İsmayılova verdi.

V.İsmayılov çıxış edərək bildirdi ki, bu il Nəsiminin anadan olmasının 650 ili tamam olur və bu il "Nəsimi ili" elan edilmişdir. Bununla əlaqədar olaraq hörmətli Prezidentimiz cənab İlham Əliyev böyük Azərbaycan şairi Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalamışdır.

Sərəncamda qeyd edilir ki, 2019-cu il Azərbaycan Respublikasında "Nəsimi" ili elan edilsin.

Azərbaycan xalqının mədəniyyətində dərin iz qoymuş mütəfəkkir şair Nəsiminin zəngin irsi bu gün də insanların əxlaqının kamilləşməsində mühüm əhəmiyyətə malikdir. Bütün bunları nəzərə alaraq cənab Prezidentimiz İlham Əliyevin imzaladığı sərəncama əsasən kollecimizin kitabxanasında Nəsiminin yubileyinin keçirilməsini təşkil etdik.

Ədəbi-bədii gecəyə dəvət olunmuş qonaqlardan Azərbaycan Xalq artisti, görkəmli kinorejissor, aktyor, ssenarist Şeyx Əbdül Mahmudbəyov, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, şair-dramaturq Hacı Nizaməddin Ziyad oğlu və ixtiraçı Şakir Qavıstanlı gözəl və maraqlı çıxışlarından sonra kollecin müəllimləri şair-publisist Firudun Oruc, Sevinc Şərifova, Xatirə Həsənova, Kollecin kitabxana müdiri Zülfiyyə Cümşüdova və kitabxanaçı Firuzə Xəlilovanın bədii gecədə çıxışları iştirakçıların alqışlarına səbəb olmuşdur.

Sonda tədbirin maraqlı və rəngarəng keçməsi üçün kollecin tələbələri Ağaməmmədov Rafael (İT-018), Nərgiz Əlizadə, Şahin Əliyev, Gülnar İbadanova, Sona Məmmədli (ƏS-018), Vüsal Gülmalıyev, Nigar Sultanova, Nərmin Ağayeva, Rəşid İsmayılov (613 qrup), Rəşad İsmayılov, Talıb İbrahimov (MK-018) və Riyad Hüseynov (ŞQ-018) Nəsiminin qəzəllərini söyləmiş və "Nəsimi" kinofilmindən bir neçə səhnəcik göstərmişlər.

Tədbir yekunlaşdıqdan sonra kollecin müəllim və tələbə heyəti qonaqlarla xatirə şəkli çəkdirmişdir.

**Akif KƏRİMLİ,**
**yazıçı-jurnalist.**